> *Bugünkü mərasimlər, bugünkü həyəcan təbii ki, fərqli bir vəziyyət ortaya qoydu. İndi inanıram ki, artıq Azərbaycan bu yeni vəziyyətdən sonra bölgədə çox ciddi infrastruktur formalaşdırmaq istiqamətində addımlar atacaq. Bu addımlarla yanaşı, bildiyimə görə, inşallah, yollar tikiləcək, dəmir yolları inşa ediləcək, bununla bağlı qərarı cənab Prezident verib və Naxçıvandan Zəngilana, Zəngilandan şimala bütün bu yollar tikildikdən sonra vəziyyət dəyişəcək. Arzu edirik ki, inşallah, bu yolları başa çatdırdıqdan sonra yay mövsümündə yeni yollarla birlikdə Şuşaya gedək, inşallah, Şuşada birlikdə olaq. Şuşa bir tarixdir. Şuşanı o tarixi ilə yaşamaq, görmək, həqiqətən bizim üçün də bir sevgidir. Bu sevgini də yaşamaq istəyirik.*
>
> **Rəcəb Tayyib Ərdoğan**
> **Türkiyə Respublikasının**
> **Prezidenti**



> *Dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olan ölkələr tapılmaz. Bu, həqiqətdir. Bu gün dünya xəritəsinə baxsaq görərik ki, bizim qədər bir-birinə bağlı olan, bir-birinin hər zaman yanında olan ikinci ölkələr yoxdur. Bizi birləşdirən həm ortaq tarix, din, mədəniyyət, dil, ədəbiyyat, eyni zamanda, bizim siyasətimizdir. Türkiyə və Azərbaycan dünya miqyasında müstəqil siyasət yürüdən ölkələrdir. Türkiyənin gücü bizim gücümüzü artırır. Bu gün əziz Qardaşımın liderliyi sayəsində Türkiyə dünya miqyasında güc mərkəzinə çevrilib. Dünyanın bir çox ölkələrində Türkiyə haqqı, ədaləti qoruyur, müdafiə edir. Əzilmiş xalqların maraqlarını müdafiə edir və ədaləti, beynəlxalq hüququ bərpa edir.*
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının**
> **Prezidenti**

# Azərbaycan – Türkiyə münasibətləri tarixi-mədəni yaxınlığa və qarşılıqlı strateji tərəfdaşlığa əsaslanır

***Əzəli-əbədi Azərbaycan torpağı olan Qarabağ 28 illik erməni işğalından sonra böyük qəhrəmanlıqla azad edildi. Bu möhtəşəm qələbə münasibətilə Bakıda Zəfər paradı keçirildi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevlə bərabər Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın, eyni zamanda, Türkiyədən gəlmiş böyük nümayəndə heyətinin, türk əsgər və zabitlərinin paradda iştirakı xalqımızı qürurlandırdı. Zəfər paradı "Bir millət, iki dövlət"in arasındakı sıx bağların nə qədər möhkəm olduğunu bir daha təsdiqlədi. Bununla Türkiyə qardaş Azərbaycanın yanında dayandığını növbəti dəfə bütün dünyaya göstərdi. Dövlətimizin başçısı Zəfər paradında çıxışı zamanı dedi: "Bu gün tarixi bir gündür. Bu gün Azadlıq meydanında Zəfər paradı keçirilir. Mən çox şadam ki, bu paradda mənim dəvətimi qəbul edərək Türkiyə Cümhuriyyətinin Cümhurbaşqanı, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan iştirak edir. Eyni zamanda, Türkiyədən gəlmiş böyük nümayəndə heyəti, türk əsgər və zabitləri iştirak edirlər. Bu, bir daha bizim birliyimizi, dostluğumuzu və qardaşlığımızı göstərir".***

Prezident İlham Əliyev daha sonra Vətən müharibəsinin ilk günlərindən başlayaraq, Azərbaycan xalqının daim Türkiyənin dəstəyini hiss etdiyini, qardaş ölkənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın açıq, birmənalı və sərt açıqlamaları ilə insanlarımızı hədsiz sevindirdiyini, bu savaşda, mübarizədə Azərbaycanın haqlı olduğunu, yanında hər zaman Türkiyənin dayandığını diqqətə çatdırdı.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan da çıxışında iki ölkə arasında qardaşlıq münasibətlərinin möhkəm, sarsılmaz təmələ əsaslandığını, Türkiyənin Azərbaycanın apardığı mübarizəyə ilk günlərdən bütün qurum və təşkilatları ilə dəstək verdiyini, bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olduğunu xüsusi vurğulayaraq bildirdi: "Türkiyə olaraq Azərbaycan ilə münasibətlərimizdə özümüzə hər zaman böyük lider Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün dəqiq ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Bu anlayışla Qarabağı otuz il boyunca sinəmizdə yara etdik. Bu gün də bu yaranın sağalmasının sevincini paylaşmaq, bu şanlı zəfəri birlikdə qeyd etmək üçün aranızdayıq".

Azərbaycan və Türkiyə rəhbərləri Azərbaycanın işğaldan azad edilən ərazilərində artıq yeni dövrün başlandığını, tezliklə yaşayış sahələrimizin abadlaşdırılacağını, bu yerlərin gülüstana çevriləcəyini bildiriblər. Dövlətimizin başçısı dedi: "İndi isə bizim üçün yeni dövr başlayır – quruculuq dövrü. Mənfur düşmən işğal edilmiş bütün torpaqları yerlə-yeksan edib. Bu məlumat artıq hər kəsdə var, videogörüntülər var. Azad edilmiş ərazilərə mənim səfərlərim bunu göstərir. Bütün binalar, bütün tarixi abidələr, məscidlər, qəbirlər, məzarlıqlar mənfur düşmən tərəfindən dağıdılıb. Biz onların hamısını bərpa edəcəyik. Artıq bərpa işləri başlanmışdır.

Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Bizim azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq. Mən demişəm ki, bizim hər birimiz bu işdə fəal olmalıyıq. Biz düşmən tərəfindən dağıdılmış şəhər və kəndlərimizi birlikdə bərpa edəcəyik. Bizim iradəmiz də var, imkanlarımız da var".

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan da çıxışında Azərbaycanın işğaldan azad edilən torpaqlarının iki qardaş ölkə tərəfindən daha abad, daha inkişaf etmiş, uşaqlarımızın daha yaxşı yaşayacağı bir yerə çevirmək üçün mübarizə aparılacağını, habelə insanların dogma yurd-yuvalarına tez bir zamanda qayıdacaqlarına əminliyini xatırladıb: "İllərdir doğulduqları yerlərdən uzaq qalaraq, yurd həsrəti ilə alışıb yanan bir milyon qaçqın və məcburi köçkün qardaşımız doğulduqları torpaqlara qayıdacaqlarını səbirsizliklə gözləyir. İnşallah, bu qardaşlarımızın həsrətinin ən qısa vaxtda sona çatacağına inanırıq".

İşğaldan azad edilən ərazilərdə artıq yeni dövrün başlanılması, yaşayış sahələrində tikinti-quruculuq, abadlıq işlərinin görülməsi ilə bağlı sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan və Türkiyə prezidentlərinin mətbuata birgə bəyanatlarında da ətraflı bəhs edildi. Dövlətimizin başçısı bəyanatında vurğuladı: "Bu gün biz, eyni zamanda, gələcəyə baxarkən azad edilmiş torpaqların inkişafı ilə bağlı öz fikirlərimizi ortaya qoyuruq. Qarabağ dünyanın ən gözəl bölgələrindən biri olacaqdır. Əminəm ki, türk qardaşlarımızın yardımı ilə biz buna nail olacağıq. Biz bu gün artıq konkret layihələr haqqında danışdıq – yol layihələri, dəmir yolları layihələri, infrastruktur layihələri. Bütün bu layihələrdə Türkiyə və Azərbaycan şirkətləri bərabər iştirak edəcəklər. Bütün bu layihələrin qısa vaxt ərzində həyata keçirilməsi bölgəyə yeni nəfəs gətirəcəkdir".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə bəyanatında artıq Azərbaycanın bu yeni vəziyyətdən sonra bölgədə çox ciddi infrastruktur formalaşdırmaq istiqamətində addımlar atacağına, yollar tikəcəyinə, Naxçıvandan Zəngilana, buradan isə şimala doğru dəmir yolları inşa edicəyinə,bununla da vəziyyətin yaxşılaşacağına əminliyini ifadə edib: "Arzu edirik ki, inşallah, bu yolları başa çatdırdıqdan sonra yay mövsümündə yeni yollarla birlikdə Şuşaya gedək, inşallah, Şuşada birlikdə olaq. Şuşa bir tarixdir. Şuşanı o tarixi ilə yaşamaq, görmək həqiqətən bizim üçün də bir sevgidir. Bu sevgini də yaşamaq istəyirik. Şəhidlərimizin ruhlarını da şad edək. Bu qədər şəhidlərimiz var, qazilərimiz yaralıdır. Onlara Allahdan şəfalar diləyirik...".

Azərbaycan və Türkiyə prezidentlərinin bəyanatları deməyə əsas verir ki, iki ölkə arasında getdikcə möhkəmlənən iqtisadi əlaqələr Qarabağın da çiçəklənməsində, dinamik inkişaf etməsində özünü göstərəcək. Bu əlaqələrin, əməkdaşlığın geniş vüsət almasını ifadə edən bəzi məqamları diqqətə çatdırmaq istərdik. Belə ki, Türkiyə respublikamızın əhəmiyyətli ticarət tərəfdaşı olmaqla ölkəmizin xarici ticarət dövriyyəsində və ixracında 2015-ci ildən, idxal əməliyyatlarında isə 2013-cü ildən etibarən 2-ci yerdə qərarlaşıb.

Türkiyənin Azərbaycanın məhsul idxalında payı 2008-2019-cu illərdə 11,3-15,8 faiz arasında dəyişməklə orta hesabla 13,5 faiz təşkil edib. Ötən il bu ölkənin Azərbaycanın idxalındakı payı 1,6 milyard ABŞ dolları olmaqla, 12 faiz təşkil edib. Türkiyənin Azərbaycanın məhsul ixracında payı isə 2008-2019-cu illərdə 0,7–14,16 faiz arasında dəyişməklə, keçən il 2,9 milyard dollara yüksəlib. Qardaş ölkəyə ümumi ixracda əsas yeri neft-qaz əmtəə kateqoriyası tutub. Bu göstərici 2,5 milyard dollar olmaqla 2019-cu ildə Türkiyəyə məhsul ixracının 88 faizini təşkil edib. Qeyri-neft sektorunda isə 2019-cu ildə əsas məhsul kateqoriyaları pambıq (5 faiz, 129 milyon dollar), plastik və polimerlər (2 faiz, 64 milyon dollar), alüminium və məmulatları (2 faiz, 56 milyon dollar) olub.

Azərbaycanın ümumi ticarət dövriyyəsində Türkiyənin payı son illərdə getdikcə artır. Belə ki, 2012-2014-cü illər arasında bu göstərici sabit olaraq 6 faiz təşkil edib, 2015-ci ildə isə 12 faizə yüksəlib. Bu proses də 2015-ci ildən etibarən Türkiyəyə neft-qaz ixracının artması ilə əlaqəli olub. Ötən il Türkiyə Azərbaycanın ümumi xarici ticarət dövriyyəsində 4,5 milyard dollar təşkil etməklə 14 faiz yer tutub.

Qardaş ölkə Azərbaycanda qeyri-neft sektoruna ən çox investisiya qoyan dövlətdir. Azərbaycan şirkətləri isə Türkiyədə əsasən energetika və kimya sahələrinə kapital axını yaradır. 2002-2019-cu illər arasında Türkiyədən Azərbaycana investisiya qoyuluşları 11 milyard dollar, Azərbaycandan Türkiyəyə sərmayə yatırımları isə 19,5 milyard dollar təşkil edib.

Bu ilin ilk yarısında Azərbaycan iqtisadiyyatına cəlb olunan birbaşa xarici investisiya qoyuluşuna görə Türkiyə 259 milyon dollar investisiya məbləği və 12,3 faiz xüsusi çəki ilə Birləşmiş Krallıqdan sonra 2-ci yerdə qərarlaşıb. Eyni dövrdə Türkiyə Azərbaycan tərəfindən xarici iqtisadiyyata yönəldilən birbaşa xarici investisiya həcmində 39,2 milyon dollar investisiya məbləği və 6 faiz xüsusi çəki ilə 8-ci yeri tutub.

Azərbaycan-Türkiyə arasındakı investisiya qoyuluşlarının həcmini artırmaq üçün geniş potensial mövcuddur. Bu amillərdən biri Naxçıvanla quru yollarının açılmasıdır. Belə ki, Naxçıvanla nəqliyyat dəhlizinin, tarixi "Ələt–Culfa" dəmir yolu xəttinin bərpası və bu dəmir yolunun Azərbaycan və Türkiyə arasında imzalanan memorandumda nəzərdə tutulan "Qars–İğdır–Culfa" dəmir yolu xəttinə inteqrasiyası ilə gələcəkdə vahid nəqliyyat-logistika şəbəkəsi qurula bilər. Bu nəhəng layihə ilə Azərbaycan və Türkiyə Avropa ilə Asiya arasında fasiləsiz daşımaların həyata keçirilməsinin əsas tərəfdaşları olacaq ki, bu da hər iki ölkəyə investisiya qoyuluşlarını artıra bilər.

Azərbaycan və Türkiyə arasındakı iqtisadi əlaqələr həm də çoxtərəfli strateji əhəmiyyətli əməkdaşlığı əhatə edir. Bu, özünü daha çox enerji-nəqliyyat qovşaqlarını nəzərdə tutan layihələrlə büruzə verir. Bu layihələr 1994-cü ildə "Əsrin müqaviləsi" ilə qəbul edilən neft axtarış-kəşfiyyat işləri ilə başlayıb, sonrakı illərdə isə genişlənib. Azərbaycan və Türkiyənin də tərəfdaş olduğu nəhəng regional layihələrə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP və TAP misal göstərilə bilər. Bu layihələr regionda iqtisadi inteqrasiyanın güclənməsi, enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır.

Bu beynəlxalq nəqliyyat və enerji layihələri Azərbaycan ilə Türkiyənin regionda mövqeyinin güclənməsində, beynəlxalq daşımalarda məsafə və daşıma müddətinin qısaldılmasında, strateji əhəmiyyətinin artmasında, regional enerji təhlükəsizliyinin təminatında, bu ölkələrin tranzit və ticarət əməliyyatları ilə yanaşı, digər sahələrdə gəlirlərin artımında, məşğulluğun həllində və əhalinin rifahının yüksəldilməsində önəm daşıyır.

Azərbaycan ilə Türkiyə arasındakı iqtisadi münasibətlər tarixi-mədəni yaxınlığa və qarşılıqlı strateji tərəfdaşlığa əsaslanır. İkitərəfli iqtisadi əlaqələrdə çoxşaxəlilik və intensivlik müşahidə edilir. Bu əlaqələr ticarət, investisiya qoyuluşları və çoxtərəfli münasibətləri əhatə edən regional layihələrdə özünü daha qabarıq göstərir. Hazırkı iqtisadi tərəfdaşlıq həm Türkiyə və Azərbaycanın ölkə miqyasında, həm də region miqyasında nüfuzunun və iqtisadi gücünün artımında əhəmiyyətli rol oynayır. Türkiyə ilə sıx iqtisadi münasibətimizin böyük inkişaf potensialı vardır. Hər iki ölkə liderləri mövcud iqtisadi əlaqələrin inkişafı üçün böyük səy göstərir. Mövcud potensialın dəyərləndirilməsi hər iki ölkədə əhalinin rifah halının yüksəldilməsi, rəqabət sisteminin inkişafı, işsizliyin həlli, enerji təhlükəsizliyinin təminatı və ölkələrin makroiqtisadi dayanıqlılığı kimi məsələlərdə böyük səmərə qazandıra bilər.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*